# Dərdimizə işıq tutan şair



**İmam Cəmilli,**
şair-publisist

**(əvvəli ötən sayımızda)**

***Müəllifin özü də birinci Qarabağ müharibəsi iştirakçısı olduğu üçün hadisələr gözü önündə baş verib. Reallığı incəliyinə kimi əks etdirən yazılar ilk cümləsindən oxucunu cəlb edir. Lirik səpkidə yazılmış yazılar ana-bacıların söylədiyi ağını xatırladır. Yeri gələndə müəllif nəsrin misralarına sığmayan ağrıya bələnmiş hiss və həyəcanlarını poeziyaya çevirib yazının ortasında, yaxud sonunda verməsi, xörəyə atılan duz kimi yazını daha "tamlı" edibdir.***

***"Qazi toyunda olmamısınızsa, çalışın mütləq olun. Fərqli bir mənzərə ilə qarşılaşacaqsınız. Saqqallı gələni kim, çəliyi çəliyə döyəni kim. Gətirilib oturdulanı kim, sakitcə oturub susanı kim..."***

Böyük ingilis dramaturqu V.Şekspirin böyüklüyü faciə içərisində gülüş yaratdığı kimi, Rəfail Tağızadənin böyüklüyü isə gülüş, sevinc içərisində faciə yaratmasıdır. Sual oluna bilər ki, necə? Səbrli ol, fikrimizə aydınlıq gətirək.

Müəllif hara gedib? Toya. Toy özü nə deməkdir? Çalmaq, oynamaq, sevinmək. Toya gələn qaziləri müşahidə edən yazıçı toyu şənləndirmək üçün çalışan qazilərin tək ayaqla, tək qolla, əlil arabasında oturub əllərini oynatması və s. sevinənləri sevinc içərisində faciə deyilmi? Bax, bu yazı ilə Rafail Tağızadə, Şekspirlə müqayisə olunmağa haqqı çatan qələm sahibidir.

"Qazilərin duyğularını anlamaq, başa düşmək üçün ürəyi, hissiyyatı olmaq gərəkdir. Bir də insan sevgisi".

Müəllif düzgün qənaətə gəlir. Ürəkli, hissiyyatlı olmaq lazımdır ki, qazilərin ağrılarını başa düşsün və onların istəklərini dəyərləndirə bilsin. Bu gün bəzi naxələflər tərəfindən qazilərə qarşı olan hörmətsizliklər baş verməkdədir. Sağlamlığını vətən yolunda qoyan adama hamı tərəfindən hörmət edilməlidir.

Müəllif qazilərin sağlamlıqlarını itirəndən sonra keçdikləri yolu ürək ağrısı ilə aşağıdakı kimi təsvir edir:

"Qazilər də bütün sağlam insanlar kimi yerimək, istədiklərini özləri etmək istəyindədirlər. Ancaq neyləsinlər ki, bu mümkünsüzdür. İlk günlər utandılar. Uyğunlaşa bilmədilər. Çəliyi necə tutmağı bacarmadılar. Tutmaq istəmədilər...

Qucağına götürə bilmədiyi, O bircə gül körpəsinə baxır. Yaraları açılır, Qanı içinə axır".

Qazilərin ümumiləşdirilmiş bu ağrılarını heç cür həyəcansız oxumaq mümkün deyil. Gül balasını qucağına götürüb sevib, əzizləmək üçün qolları olmayan qazi qardaşımızın yaralarının qanının içinə axması müharibənin törətdiyi faciəsi deyilmi?

Müharibə törədənlərin özləri bu faciəni yaşasaydılar heç bir vaxt müharibə etmək fikrinə düşməzdilər. Müharibə insanlığın faciəsidir. Belə bir faciəni ermənilər dinc və günahsız Azərbaycan xalqına yaşatdılar.

Müəllif "27 sentyabr 2020-ci il" yazısına sevinclə başlayır. Yazıçı kədərinə son qoyan bu tarix, xalqın səbrinin tükənən ölüm ya olum məqsədinin həll olunduğu gündür.

***Xalq, dövlət və ordunun yumruq kimi birgə olduğu gün. Həmin gün – 27 sentyabr 2020-ci il, Azərbaycan tarixinin yeni yazılacaq bir səhifəsinin başlandığı gün. Qoca və cavanın hərbi komissarlıqda orduya yazılmaq üçün növbə günü.***

***Otuz illik torpaq həsrətinə son qoyulduğunun başlanğıc günü.***

***Həmin günü istedadlı qələm sahibi Rəfail Tağızadə bu cür qeyd edir: "Sınmış, süstləşmiş qollar silaha sarılmağa qalxırdı. Sallaq başlar dikələrək düşmənə nifrət dolu alovlu baxışlar yollayırdılar. Hamı sanki yenidən doğulmuşdu. Ahıllar da cavanlaşmışdı.***

Sönmüş arzular güllə-güllə çiçəkləyirdi. Toptop açılırdı... Yeni həyatın ilk gününə qədəm qoyurduq".

Yazıçının sevincini nümunə çəkdiyimiz yazıda sözlərə verdiyi rəng və boyalardan da görmək olar. Bu yeni ifadələr yazıçı sevincidir.



Tarixdə nadir hallarda işğal olunmuş torpağı otuz ildən sonra qaytarmaq faktı çox azdır, bəlkə də, heç yoxdur.

Azərbaycan ordusu haqqədalət uğrunda apardığı mübarizədə bunu sübut etdi. 44 günlük müharibə zamanı bir dəfə də olsun Azərbaycan ordusu geri çəkilmədi. Ancaq qələbə bayrağı əlində addım-addım irəlilədi. Cəbhədə şəhid olanları "toy bayramla" qarşılayırdılar. Şəhidin yaxınları hər gün eşitdikləri qələbə xəbərindən qürurlanırdılar ki, şəhidin qisası qiyamətə qalmadı.

***Şuşanın alınması bu gün də çoxlarının təəccübünə səbəb olur. "Orduya bu qədər sevgi olmamışdır" deyən müəllif Şuşa haqqında yazır: "Texniki hesablamaların dəqiqliklə aparılmasını, döyüşçülərimizin Şuşaya alpinist kimi qalxıb, özündən dəfələrlə çox düşmənlə kiçik çaplı silahlarla döyüşdə qalib gəlməsini dünyanın aparıcı hərbi ekspertləri, siyasətçiləri hərb tarixində yeni bir səhifə kimi qiymətləndirdilər".***

Bu danılmaz faktdır. Atalar sözüdür: "El bir olsa, zərbi kərən sındırar", sözünün işığında baxsaq görərik ki, 44 günlük müharibə zamanı dinindən, millətindən, iqtidar müxalifət olmasından asılı olmayaraq, hamı əlindən gələni vətən üçün etdi. Bu birliyin əsas səbəbi hamının içində olan vətən sevgisi, Qarabağ həsrəti idi.

Xalqın arzu-diləyi kimi gündən-günə çiçəklənən Qarabağ qollarını geniş açaraq doğmalarını sinəsinə sıxmaqdan zövq alır.

8 noyabr Zəfər bayramı Qarabağın doğum günüdür. Bayramlar içərisində xalqın ən çox sevdiyi, əzizlədiyi gündür, 8 noyabr.

Bu Zəfər bayramının bayrağının dalğalanması üçün minlərlə oğullar şəhid və qazi oldu. Qarabağ torpağının hər qarışı müqəddəsdir. Qarabağ torpağında açan lalələr şəhid qanı ilə suvarılıbdır.

Yazını müəllifin "Şəhidim" adlı yazısı ilə yekunlaşdırmağı qərarlaşdırdıq. Çünki ən gözəl sonluğu müəllif özü deyir. Bu sonluğa əlavə etməyə ehtiyac duymadım:

Ucalan bayrağa baxan var,
Bayrağı öpüb and içən var...
...Sən vətən üçün şəhadətə
qovuşdun, Ucaltmaq istədiyin bayraq qədər ucaldın. Bu sevginin ən yüksək məqamıdır,
İnsan şəhidliyi ilə ucalır.
...Sən tarix yazdın.
Tarix səninlə yazılacaq.
Şəhidin milləti olmur.
Şəhidin Vətəni olur.
Vətənin şəhidi olur.
Xalqın çiynində getmək əbədiyyət qazanmaqdır.
Əbədiyyətin mübarək, ŞƏHİDİM!"




Rəfail Tağızadənin "Qarabağ – həsrətdən zəfərə" kitabı haqqında qısa qeydlərimizi etdik. Dərdinə güzgü tutan şair-nasir çox şükürlər olsun ki, o güzgüdə sonda sevinc gördü və oxucunu da sevindirə bildi. Arzu edirik bu sevinc əbədi olsun.

Müəllifin "Şəhərim" adlı şeiri ilə sevincinə biz güzgü tutmağı qərarlaşdırdıq.

***Sən muğam nəfəslisən,***
***Həm zili, həm pəsisən. Qarabağın səsisən,***
***Mənim səda şəhərim.***
***Mənim əda şəhərim,***
***Mənim muğam şəhərim.***
***Mənim Ağdam şəhərim.***

***Rəfail müəllim, arzu edirik qalan ömrünü uzun illər həsrətini çəkdiyin Ağdamda, ata ocağında keçirəsiniz. Çəkdiyiniz o ağrı-acıları unudasınız və qələminiz qəmdən-kədərdən uzaq ola, ancaq sevgi nəğmələri yaza.***

